BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2015

UOT 94 (79.24)

# 1918-Cİ İL MART SOYQIRIMININ BAKI HADİSƏLƏRİ

**T.A.VƏLİZADƏ**
***Bakı Dövlət Universiteti***
***turallachin@mail.ru***

*Bu məqalə Fövqəladə Təhqiqat Komissiyasının (FTK) sənədləri əsasında 1918-ci ildə Bakıda ermənilər tərəfindən törədilən qırğınlara həsr olunub.*

*Son dərəcə mürəkkəb və ağır şəraitdə fəaliyyətə başlayan gənc Azərbaycan Respublikası Hökumətinin böyük uzaqgörənlik və operativlik nümayiş etdirərək həmin hadisələrə ən yüksək və ciddi şəkildə münasibət bildirmək və konkret tədbirlər görmək niyyəti, sözsüz ki, böyük təqdirə layiq idi və zaman özü görülmüş bu işin əsl qiymətini verdi.*

*Azərbaycan Xalq Cümhuriyyəti hökuməti özünün Gəncədə keçirdiyi 15 iyul 1918-ci il tarixli iclasında bu məsələni geniş və ətraflı müzakirə edərək, Avropa müharibəsi başlandığı vaxtdan bütün Cənubi Qafqaz hüdudlarında müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıq hallarının təhqiq olunması üçün Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul etdi.*

**Açar sözlər:** soyqırım, ermənilər, sənədlər, Fövqəladə Təhqiqat Komissiyası, Bakı

1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər ciddi-cəhdlə gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açıldı, təhrif edilmiş hadisələr özünün əsl qiymətini almağa başladı.

Zaqafqaziyada ermənilər tərəfindən Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı aktları insanlığın utanc, tarixin təhrif edilmiş və hüznlü səhifələrindən biridir. Bu qəbildən xüsusilə 1918-ci ilin 30-31 mart və aprelin ilk günləri, Stepan Şaumyanın başçılıq etdiyi bolşeviklərin və erməni-daşnak silahlı dəstələrinin Azərbaycan əhalisinə qarşı Bakı şəhərində həyata keçirdikləri soyqırımı nəinki Azərbaycan tarixinin, eləcə də dünya tarixinin ən böyük və dəhşətli faciələrindən biridir.

Həmin dövrdə Zaqafqaziyada siyasi vəziyyət olduqca gərgin idi. 1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar

sülaləsi devrildi və iri rus burjuaziyası Müvəqqəti Hökumət təşkil etməyə nail oldu. Müvəqqəti Hökumət Rusiya xalqlarına müraciətində elan etdi ki, I Dünya müharibəsi başa çatandan sonra xalqların öz müqəddəratını təyin etməsi məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti zorakı yolla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxartdı. Bolşeviklər fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bərpa etməyə başladılar.

1918-ci ilin əvvəlində ermənilər Bakıda kifayət qədər güclü siyasi, iqtisadi və ictimai mövqelərə malik idilər və şəhər həyatının demək olar ki, bütün sahələrində təmsil olunurdular. Bakı şəhərinin və onun ətraf kəndlərinin bütün əhalisinin sayına görə azərbaycanlı və rus əhalidən sonra ermənilər üçüncü yeri tuturdular (11, 30). Bakının erməni ictimaiyyətinin maraqlarını erməni aristokratiyası və elitasının demək olar ki, bütün nümayəndələrinin daxil olduğu Erməni Milli Şurası təmsil edirdi. Ermənilər ticarət, sənətkarlıq, maliyyə sahələrində nəzərəçarpacaq rol oynayır, vasitəçilik və sələmçi funksiyalarını ifa edir və hətta beynəlxalq sövdələşmələrə də müvəffəq olurdular. İşgüzar və tədbirli erməni burjuaziyası hələ Bakıda neft hasilatının yüksəlişinin ilk çağlarında neftlə zəngin ən yaxşı əraziləri ələ keçirməyi bacarmış və Bakının neft sənayesində imtiyazlı mövqe tutmağa nail olmuşdu. Təsadüfi deyil ki, bu sahədə əsas təşkilata – Neft Sənayeçiləri Qurultayı Şurasına erməni burjuaziyasının nümayəndələri rəhbərlik edir, onun "çoxsaylı müəssisələrində bütün vəzifələri də erməni mühəndisləri, həkimləri, kontorçuları, hesabdarları və s. tuturdular" (5).

Dövrün mənzərəsini, o cümlədən ermənilərin türk-müsəlman əhalisinə qarşı soyqırımı aktının hansı proqram və üsullarla həyata keçirildiyini Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetinin 31 mart 1919-cu il sayında açıq-aydın göstərmişdir. O, yazır: "Onda ki, Rus bolşevizmi araya bir "qrajdanski" və bir də milli olmaq üzrə iki rəngli müharibə salıb çaylarca qanlar axıtdı, milyonlarca bəşər övladını tələf etdi, yüz minlərcə evlər viranə qoydu və bu qanlı vaqeədən hasil olan təsirat, təbii, böylə bir əqidə törənməsinə səbəb oldu ki, Rus inqilabı, yalnız bir rusluğa müxtəss olub çarizm istibdadını qaldırmaqla deyil, ümum millətləri, bəlkə Rus xalqını bu istibdad təhtindən qurtarıb, digər millətləri təkrar əsarət altında saxladı. Yalnız bir fərq bu oldu ki, bu... keşikçiləri əvvəl rus çarizmi idi, bu səfər isə rus bolşevizmi oldu. Hər halda əsirlik aradan götürülmədi - qurd əlindən qurtulmuş quzu, qurtaranın yemi olmaq məcburiyyətində qaldı..." (7).

1918-ci ilin mart ayında Bakıda siyasi vəziyyət son dərəcədə gərgin idi. Azərbaycanda milli qüvvələrə başçılıq edən "Müsavat"ın getdikcə artan nüfuzundan qorxuya düşən bolşevik-daşnak qüvvələri Bakını inqilabla əksinqilab arasında mübarizə meydanına çevirmişdilər. Bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında Qırmızı Ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmləşmişdi.

"Bir əsr bundan əvvəl müstəqil yaşamaqda olan Azəri türkləri rus

istibdadının yıxıldığını görüb təkrar müstəqil yaşamaq ümidi fərəhi bəxşilə şad olub istiqlala hazırlaşmaq üçün tədarükatda bulunmağa başlar. Lakin yeni hakimlərimiz bu fikrimizi həmandəm duyub əks tədarükat görməyə iqdam edib: "Biz sizə istiqlal əvəzində xərabəzar verərik, torpağınızda daşı-daş üstə qoymarıq" - deyə barmaq işarəsilə hədələdilər.

İstiqlalımıza qarşı ittixaz edilmiş olan sui-qəsdlərində özlərini "inqilabçı" nöqteyi-nəzərindən həqli göstərmək niyyətilə, adımızı "kontrrevolyüsaner" qoyub hücuma hazırlandılar, hazırlanıb da başımıza Mart fəlakətini gətirib, hədələrinə müvafiq olaraq paytaxtımızı xərabəzarə döndərdilər" (7).

Bu dəhşətli soyqırım bir tərəfdən erməni millətçilərinin insanlığa nifrətlə yoğrulmuş ideologiyasından qaynaqlanırdısa, digər tərəfdən Bakıda və Azərbaycanda genişlənən istiqlal hərəkatının qarşısını almaq, bütövlükdə Bakını və ətraf bölgələri yerli əhalidən təmizləmək məqsədi daşıyırdı.

Həmin qanlı günlər ərzində şəhərin və onun ətraf kəndlərinin dinc müsəlman – azərbaycanlı əhalisi görünməmiş dəhşətli cəza aksiyalarına – talan və ölümlərə, əzilmək, əsir alınmaq, təhqir, qarət edilmək – bir sözlə, amansızlıqla özbaşınalıq edən bolşevik-daşnak hərbi qüvvələri tərəfindən hər şeyin və hər kəsin məhv edilməsinə məruz qalmışdır.

Qeyd olunmalıdır ki, Azərbaycan ziyalıları bu faciənin qarşısını almaq üçün əllərindən gələni edirdilər. Bu baxımdan S.Şaumyanla birgə bolşeviklərin sıralarında fəaliyyət göstərən Nəriman Nərimanovun bu istiqamətdə xidmətləri təqdirəlayiqdir. Bunu "Hümmət" qəzetinin 1 aprel 1918-ci il sayında işıq üzü görmüş "Qanlı faciədən dörd saat qabaq" adlı redaksiya məqaləsi də təsdiq edir: "Yoldaşımız doktor Nəriman Nərimanov "İsmailiyyə" binası və "Təzə pir" məscidində mitinqlərdə olan əhvalatlardan xəbərdar olub tezliklə öz evində bir məclis çağırdı. Bu məclisdə "Hümmət" firqəsinin üzvlərindən savayı Kəndçi ittifaqının sədri Mirzə Axund və uyezdni komissar Əliheydər Yusifov da hazır idilər. Doktor N.Nərimanov Qafqaz komissarı Şaumyanın vədəsini almışdı. Saat 12-də Şaumyan bu məclisə gəldi. Doktor N.Nərimanov məclisi açıb təsirli bir nitq söylədi və axırda üzünü Şaumyana tutub dedi: "Yoldaş! Siz və mən də müsəlmanların halını bilirik. Hərgah bir iğtişaş başlasa ayaq altında qalan fəqir-füqəra olacaqdır. Həmən fəqir-füqəra ki, siz də və mən də onun yolunda işləyirik. Buna binaən mən sizdən təvəqqe edirəm, sizə yalvarıram ki, bu işi sülh yolu ilə qurtarasınız. Hər iki tərəfi sakit etmək üçün mən təklif edərdim tüfənglər müsəlman siyasi firqələrə və yəni ki, bunlardan ibarət bir komitəyə tapşırılaydı". Şaumyan cavab verdi: "Doktor N.Nərimanovun sözlərinə büs-bütünə şərik olduğundan var qüvvəmlə bu işi yatırmağa səy edəcəyəm". Bu məclis saat 4-də qurtardı. Və Şaumyan Hərbi İnqilab Komitəsinə gedib doklad (məruzə - T.V) etdi. Görünür ki, yoldaşımız doktor N.Nərimanovun təklifi qəbula keçibmiş. – Çünki müsəlman vəkilləri təsdiq edirdilər ki, - bunlara Çaparidze dedi: "Siz arxayın gediniz, sabah tüfəngləri müsəlman siyasi qüvvələrinə verəcəyik". Vəkillər İcraiyyə Komitəsində olarkən atışma başlanır. Hansı tərəfdən və kim başlayır, müsəlmanlara məlumdur" (8).

Ancaq bütün bu çabalar heç bir nəticə vermədi. Qarşıya qoyduqları məqsədlərinə çatmaq üçün hətta öz soydaşlarının belə canına qıyan ermənilər, təbii olaraq bu məsələdə də partiyadaşları N.Nərimanovun acizanə yalvarışlarını qulaq ardına vurdular.

1918-ci il martın 30-da axşam başlanan azərbaycanlı qırğınları faktiki olaraq bir həftə davam etdi, ancaq onun üç günü görünməmiş amansızlıq, qəddarlıq və azğınlıq edən daşnak dəstələri tərəfindən şəhərin azərbaycanlı-müsəlman əhalisinin qırılmasının və qarət edilməsinin xüsusilə kütləvi xarakteri ilə səciyyələnirdi.

Şahid qismində dindirilən Bakı sakini, əslən yəhudi olan Aleksandr Naumoviç Kvasnik ifadəsində baş vermiş hadisələr haqqında qiymətli məlumatlar vermişdir. Onun Fövqəladə Təhqiqat Komissiyası üzvünə verdiyi şahid ifadəsində deyilirdi: "Bu ilin 17-21 mart tarixlərində (köhnə stillə - T.V) Bakı şəhərində baş vermiş hadisələrə təmiz vicdanla belə ad vermək lazımdır - Müsəlmanların fiziki olaraq məhv edilməsi, bütün əmlakının mənimsənilməsi və onların bütün rifahının və siyasi üstünlüyünün ermənilərin əlinə keçməsi məqsədilə, əvvəlcə Bakı şəhərində, sonra isə ucqarlarda erməni əhalisinin müsəlman əhalisinə qarşı təşkil edilmiş qanlı sui-qəsdi" (4, 2).

Bakıda mart soyqırımı planı hələ 1917-ci ilin sonlarında "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası tərəfindən hazırlanmışdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.

Son dərəcə mürəkkəb və ağır şəraitdə fəaliyyətə başlayan gənc Azərbaycan Respublikası Hökuməti böyük uzaqgörənlik və operativlik nümayiş etdirərək həmin hadisələrə ən yüksək və ciddi şəkildə münasibət bildirmək və konkret tədbirlər görmək məqsədilə 31 avqust 1918-ci ildə Fövqəladə Təhqiqat Komissiyasını təşkil etdi. Belə ki, 1918-ci ilin iyul ayının ortalarında, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabinəsi Xarici İşlər Naziri M.H.Hacınskinin məruzəsini dinləyərək respublikada baş vermiş hadisələrə, xüsusilə də dinc azərbaycanlı əhalisinə qarşı törədilən kütləvi zorakılıq hallarına öz mövqeyini bildirməyi vacib hesab etdi. Məruzədə deyilirdi: "Artıq dörd aydır ki, Azərbaycan ərazisinin müxtəlif bölgələri quldur dəstələri tərəfindən dağıdılır, bolşevik adı altında məsuliyyətsiz erməni hərbi hissələri və başqaları mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Eyni zamanda həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yanlış məlumatlar əsasında Avropa ölkələrində ictimai fikir tamamilə əks istiqamətə yönəldilir" (1). Məruzədə qeyd edilirdi ki, həm ümumdövlət maraqları, həm də əhalinin zərərçəkən qruplarının mənafeyi hökmən, elə bir təşkilatın yaradılması zərurətini irəli sürür ki, "o, aşağıdakılarla məşğul olsun: 1) bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatının aparılması; 2) həmin

zorakılıqların törədildiyi şəraitin müəyyən edilməsi; 3) müqəssirlərin aşkar olunması və onların vurduqları zərərin ümumi miqdarının müəyyənləşdirilməsi" (1). Bu təşkilat Fövqəladə Təhqiqat Komissiyası xarakteri daşımalı, onun işinin nəticələri müxtəlif Avropa (rus, fransız, alman) və türk dillərində nəşr edilməli və geniş yayılmalı idi. M.H.Hacınski xüsusilə vurğulayırdı ki, Təhqiqat Komissiyasının təşkilinə yubanmadan başlamaq lazımdır, "çünki bu gün, hadisələrin isti izi ilə asanlıqla müəyyən edilməsi mümkün olan bir çox işləri - şəxslərin dindirilməsi, foto-şəkillərin çəkilməsi və digər əşyayi-dəlillərin əldə edilməsi - sonradan görmək çətinləşəcəkdir, hətta ola bilsin ki, qətiyyən mümkün olmayacaqdır..." (1).

Beləliklə, Azərbaycan Hökuməti Gəncədə keçirdiyi 15 iyul 1918-ci il tarixli həmin iclasında bu məsələni geniş və ətraflı müzakirə edərək, "Avropa müharibəsi başlandığı vaxtdan bütün Cənubi Qafqaz hüdudlarında müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıq hallarının təhqiq olunması üçün Fövqəladə Təhqiqat Komissiyasının təşkili haqqında" qərar qəbul etdi (2). Bu azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Cümhuriyyət hökumətinin başçısı, eyni zamanda xarici işlər naziri Fətəli Xan Xoyskinin imzaladığı 31 avqust 1918-ci il tarixli qərara əsasən 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Həmin qərarda deyilirdi: "Hökumətin 15 iyul 1918-ci il tarixli Qərarının icra olunması üçün sədr - andlı iclasçı Ələkbər bəy Xasməmmədovdan və aşağıdakı üzvlərdən ibarət olan tərkibdə Fövqəladə Təhqiqat Komissiyası yaradılsın: Gəncə Dairə Məhkəməsinin üzvləri İsmayıl bəy Şahmalıyev və Andrey Fomiç Novatski, həmin dairə məhkəməsinin prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə Köçürmə idarəsinin üzvü Nikolay Mixayloviç Mixaylov və Barışdırıcı hakimlər qurultayının keçmiş sədri, həqiqi mülki müşavir V.V.Qudvillo və müəllim Məmməd Cavad Axundzadə. Gündəlik maaş təyin edilsin..." (3).

Fövqəladə Təhqiqat Komissiyasının AXC Xarici İşlər Nazirliyi yanında yaradılmasına baxmayaraq, hökumətin başçısı F.X.Xoyskinin 22 sentyabr 1918-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyinin nəzdində fəaliyyətini davam etdirməyə başladı. Komissiyanın işində Andrey Fomiç Novatski, Nikolay Mixayloviç Mixaylov, Aleksandr Yevgenyeviç Kluge, Məmməd xan Təkinski, Aley Adamoviç Aleksandroviç (Litovskiy) və digər peşəkar hüquqşünaslar və ictimai-siyasi xadimlər daha fəal iştirak etmişlər.

Erməni-daşnak qüvvələri tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımı təhqiq etmək və tarixi həqiqətləri dünyaya çatdırmaq üçün təsis edilən Fövqəladə Təhqiqat Komissiyasının 1919-cu ilin avqust ayına qədər topladığı materiallar 36 cild (3500 səhifə) təşkil edirdi ki, bunların 6 cildi (740 səhifə) Bakı şəhəri və onun ətraf kəndlərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq aktlarını əhatə edirdi. İstintaq materialının digər cildləri ermənilər tərəfindən Bakı quberniyasının Şamaxı, Quba, Göyçay, Cavad qəzalarında, Gəncədə, Nuxada, Qarabağda, Zəngəzurda və Azərbaycanın digər

rayonlarında törədilmiş dəhşətli cinayətləri əks etdirirdi.

Komissiyanın səmərəli fəaliyyəti erməni caniləri tərəfindən birmənalı qarşılanmırdı və bu onları çox hiddətləndirirdi. Belə ki, onlar bu araşdırmalara qarşı qara piar aparmağa, komissiyanın fəaliyyətinə mane olmağa çalışırdılar. Qeyd edilməlidir ki, nə Bakının erməni və rus dairələrinin tənqid atəşinə tutduğu "hakimiyyət dairələrinin və onların təmsil etdikləri ictimai cərəyanların", nə də Fövqəladə Təhqiqat Komissiyasının ətrafında qaldırılmış hay-küy onların bu istiqamətdə işinə qətiyyən təsir etmirdi. Əksinə, Ədliyyə Nazirliyinə və Fövqəladə Təhqiqat Komissiyası sədrinə həmin komissiyanın üzvlərindən araşdırdıqları fakt və sübutları ümumiləşdirən məruzələr və raportlar daxil olmaqda davam edirdi. Bu məruzələrdə on minlərlə qətlə yetirilmiş və sağalmaz ziyanlar vurulmuş insan taleləri, dəyəri milyonlarla ölçülən maddi zərərlər, yüz minlərlə qarət edilmiş, dağıdılmış evlər, yandırılmış kəndlər, məhv edilmiş mədəniyyət və milli memarlıq abidələri, məktəblər, xəstəxanalar, məscidlər, sənaye, ticarət obyektləri və s. haqqında məlumatlar verilirdi. Öz işini vicdanla yerinə yetirmiş cəmi bir neçə nəfərin – Fövqəladə Təhqiqat Komissiyasının üzvlərinin topladığı minlərlə sənəd və sübutlar yalnız hüquqi nöqteyi-nəzərdən deyil, həm də misilsiz tarixi-siyasi, diplomatik əhəmiyyət daşıyırdı.

Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyəti, həmçinin, ermənilərin vəhşiliklərini öz üzərində hiss etmiş respublika əhalisi arasında da böyük ictimai və əxlaqi-psoxoloji məna kəsb edirdi. Fövqəladə Təhqiqat Komissiyasının özünün mövcud olması və onun üzvlərinin cəmiyyətin ayrı-ayrı təbəqələri ilə, azərbaycanlılarla sıx əməkdaşlıq etməsi artıq özlüyündə geniş əhali kütlələri arasında ədalətin bərpa olunmasına inamı artırır və yeganə qanuni hakimiyyət kimi Azərbaycan hökumətinə xalqın etimadını və etibarını möhkəmlədirdi (10, 62).

Tərtib edilmiş sənədləri, o cümlədən Fövqəladə Təhqiqat Komissiyasının sədrinə Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlar haqqında həmin komissiyanın üzvü Aleksandr Kluge tərəfindən tərtib edilmiş məruzəni həyəcansız oxumamaq mümkün deyil: "...Mart hadisələri zamanı 11 minə yaxın müsəlman qətlə yetirilmişdir; onların əksəriyyətinin cəsədi aşkar edilməmişdir, çünki ermənilər onları yanan evlərin içinə, dənizə və quyulara atmışlar. Heydər Qulu Quliyevin dediyinə görə, o, şəhərin bir neçə rayonlarında müsəlman mənzillərinə baş çəkərkən dəhşətli dərəcədə eybəcər hala salınmış meyitlərə rast gəlmişdir. Məsələn, o, öz bacısı oğlu Bəşər Cəfərovun cəsədini başı bədənindən ayrılmış, qolu kəsilmiş halda və bədənində üç süngü yarası ilə tapmışdı, həm də onun başını harasa aparmışdılar..." (6, 18).

1920-ci il aprelin 27-də XI rus ordusunun Bakını, sonra isə Azərbaycanın bütün bölgələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Cümhuriyyətin gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan sovetləşən kimi Zəngəzur qəzası daxil olmaqla Azərbaycan əraziləri Sovet Ermənistanına bağışlandı. Beləliklə, 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını

təsadüfi hadisə deyil, “Daşnaksütyun” partiyasının “Böyük Ermənistan” yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırımı siyasəti olmuşdur (9, 135).

Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu və 1920-ci illərdə 31 mart tarixini ümummilli matəm günü kimi qeyd etdi. Bakıda mart faciələri günlərində, habelə Şamaxıda, Qubada və respublikanın digər qəzalarında əzablı ölümlə həlak olmuş bütün qurbanların xatirəsi əziz tutulmaqla, M.Ə.Rəsulzadənin sözləri ilə deyilərsə, onlar eyni zamanda “Azərbaycanın azadlıq və müstəqillik ideallarının qurbanları və şəhidləri” hesab edildilər (7). “Mart hadisələri inqilab təqvimində artıq yalnız sadə bir dönüş nöqtəsi deyil, “yaddaşın bir parçası”, yaxud “yaddaş yeri”, vətəndaş şüurunun və milli tarixin başlanğıcı idi. Azərbaycan türkləri Böyük müharibə dövrünün bütün qurbanları arasında öz şəxsi nadir milli qurbanını tapdı, və bu, onlara Versalda Antanta dövlətlərini öz qiymətli təyini-müqəddərat hüquqlarını böyük əziyyətlə qazandıqlarına inandırmağa imkan verdi” (12, 97).

Erməni-daşnak qüvvələri tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları təhqiq etmək və tarixi həqiqətləri dünyaya çatdırmaq üçün təsis edilən Fövqəladə Təhqiqat Komissiyası Azərbaycan hökumətinin mühüm qərarlarından biridir. Bu Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrə milli yaddaşın təzahürüdür. Belə ki, son dərəcə mürəkkəb və ağır şəraitdə fəaliyyətə başlayan gənc Azərbaycan Respublikası Hökumətinin böyük uzaqgörənlik və operativlik nümayiş etdirərək həmin hadisələrə ən yüksək və ciddi şəkildə münasibət bildirmək və konkret tədbirlər görmək niyyəti, sözsüz ki, böyük təqdirə layiq idi və zaman özü görülmüş bu işin əsl qiymətini verdi.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 1061, siyahı 1, iş 95, vərəq 1 (Bundan sonra: AR DA, f. s. iş. v.).
2. AR DA, f. 1061, s. 1, iş 95, v. 2.
3. AR DA, f. 1061, s. 1, iş 95, v. 3.
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (Bundan sonra: AR Pİİ SSA), fond 277, siyahi 2, iş 26, vərəq 1-7.
5. AR Pİİ SSA, fond 277, siyahı 2, iş 26, vərəq 2.
6. AR Pİİ SSA, fond 277, siyahi 2, iş 27, vərəq 16-24.
7. “Azərbaycan” qəzeti № 147, 1919, 31 mart.
8. “Hümmət” qəzeti № 36, 1918, 1 aprel.
9. İsgəndərli Anar. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı: Elm və təhsil, 2012, 228 s.
10. Rüstəmova-Tohidi Solmaz. “Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə”. Bakı: 2013, 456 s.
11. Документы по истории Баку. 1810-1917. Баку: 1978, с. 30.
12. Майкл Смит. Память об утратах и азербайджанское самосознание. Азербайджан и Россия: Общество и государство. М.: 2001, с. 97.

## БАКИНСКИЕ СОБЫТИЯ МАРТОВСКОГО ГЕНОЦИДА 1918 ГОДА

**Т.А.ВЕЛИЗАДЕ**

### РЕЗЮМЕ

Эта статья на основании документов Чрезвычайной Следственной Комиссии (ЧСК) посвящена убийствам, совершенные армянами в Баку в 1918 году. Надо отдать должное первому Правительству молодой Азербайджанской Республики, в сложнейших и тяжелейших условиях своего существования и деятельности, так оперативно и дальновидно отреагировавшего на эти события и принявшего конкретные действия. На том же заседании - от 15 июля 1918 г. Совет Министров Азербайджанской Республики принял постановление о создании Чрезвычайной Следственной Комиссии, “для расследования насилий, произведенных над мусульманами и их имуществом в пределах всего Закавказья со времени начала Европейской войны”.

**Ключевые слова:** геноцид, армяне, документы, Чрезвычайная Следственная Комиссия, Баку

## BAKU EVENTS OF MARCH GENOCIDE IN 1918

**T.A.VALIZADEH**

### SUMMARY

This article deals with the massacres commited by Armenians in Baku in 1918 on the basis of documents of Mergency Investigation Commission (EIC). We must give due to the first young Government of the Republic of Azerbaijan who in the most complicated and hardest conditions of its existence and activities as quickly and discreetly reacted to these events and took specific steps. At the same meeting, on July 15, 1918, the Council of Ministers of the Azerbaijan Republic adopted a decree on the establishment of Mergency Investigation Commission (EIC), “to investigate the assaults made on Muslims and their property within the entire Caucasus since the beginning of the European war”.

**Key words:** genocide, Armenians, documents, Mergency Investigation Commission, Baku